# Bizim tarixi qələbəmiz qürur mənbəyimizdir

*Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq qələbə və mütləq qələbə olmamışdır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



***Son 17 ildə Azərbaycanın beynəlxalq münasibətlər sistemində, eləcə də sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, həmçinin ordu quruculuğunda görülən işlər Vətən müharibəsində parlaq qələbəmizi şərtləndirib.***

Ötən dövrdə Prezident İlham Əliyevin bütün fəaliyyət istiqamətində işğal altındakı torpaqlarımızın azad edilməsi mühüm yer tutub. Yeni Azərbaycan Partiyasının (YAP) VII qurultayında Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev videoformatdakı nitqində də bu barədə geniş bəhs edib. Dövlətimizin başçısı bu müddətdə xalqımızın yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası, düşmənin torpaqlarımızdan qovulması kimi bir amalla yaşadığını xüsusi vurğulayıb.

Ölkə rəhbəri, eyni zamanda, erməni işğalçılarına qarşı 44 günlük haqq savaşımızda Azərbaycan Ordusunun qəhrəmanlıq nümunələri göstərdiyini, əsgər və zabitlərimizin fədakarlıqla döyüşdüklərini diqqətə çatdırıb. Dövlətimizin başçısı daha sonra ötən 17 ildə ordu quruculuğuna xüsusi önəm verildiyini, bu sahədə ciddi islahatlar gerçəkləşdirildiyini də xatırladaraq deyib: "Bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi – 44 günlük müharibədə və bizim tarixi qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq qələbə və mütləq qələbə olmamışdır".

Bütün bunlara görə, Vətən müharibəsində qazanılan möhtəşəm qələbə bu gün hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, hər kəsdə qürur və fəxarət hissi doğurur.Burada bir məqamı da vurğulamaq istərdik. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, müharibənin başlanması təsadüfi deyildi. Əvvəla atəşkəs dövründə düşmən ölkəmizə qarşı mütəmadi təxribatlar törədir, ərazilərimizi atəşə tutur, Şuşa şəhərində qondarma Dağlıq Qarabağ rejiminin "rəhbəri"nin "andiçmə mərasimi"ni keçirir, "Dağlıq Qarabağ parlamenti"nin Xankəndidən Şuşaya köçürülməsi barədə qərar qəbul edirdi.

Bütün bunlar azmış kimi, Birləşmiş Millətlət Təşkilatının hələ 1993-cü ildə qəbul edilən 822, 853, 874, 884 saylı qətnamələrində işğal olunan Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərini yerinə yetirmək əvəzinə, yeni ərazilər ələ keçirməyə cəhd göstərirdi.

Xatırladaq ki, ərazisi işğala məruz qalan Azərbaycanın 30 ilə yaxın müddətdə diplomatik təmkin nümayiş etdirməsi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşması, lakin bunun müqabilində işğalçı Ermənistana ciddi beynəlxalq təzyiqin göstərilməməsi vəziyyəti daha da gərginləşdirmişdi. BMT ilə yanaşı, Avropa Şurası, Avropa İttifaqı, NATO, İslam Konfransı Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qətnamə və bəyanatlarına məhəl qoymayan Ermənistanın aşkar şəkildə ərazi ilhaqı siyasəti yürütməsi danışıqlar prosesini "dalana dirəmişdi".

Beləliklə, Azərbaycan ötən il sentyabrın 27-də Ermənistan ordusunun başladığı hücuma əks-həmlə əməliyyatları ilə cavab verməli oldu. Vətən müharibəsinin 44 günü ərzində silahlı qüvvələrimizin qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olacağını anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı. Noyabrın 10-da isə Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən üçtərəfli bəyanat imzalandı. Bununla da 30 ildən artıq davam edən münaqişəyə, torpaqlarımızın işğalına son qoyuldu, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatı şərtləndirildi.

***(ardı 2-ci səhifədə)***

# Bizim tarixi qələbəmiz qürur mənbəyimizdir

*(əvvəli 1-ci səhifədə)*

Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edildi. Ötən il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarıldı.

Ermənistan döyüş meydanında məğlub olmasaydı, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan döyüş meydanında Ermənistan ordusunu sarsıdaraq, hərbi texnikasının 80 faizini məhv edərək, onun saxta "yenilməzlik mifi"ni darmadağın etdi.

Bu gün işğaldan azad edilən ərazilərimizdə erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər hər addımda nəzərə çarpır. Viran qoyulan şəhər və kəndlərimiz, dağıdılan, təhqir edilən məscidlərimiz, yer üzündən silinən tarix və mədəniyyət abidələrimiz düşmənin nə qədər barbar, vəhşi olduğunu göstərir.

Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Mənfur düşmən Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdüb. Bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıb.

Ermənistan işğal dövründə beynəlxalq konvensiyaları pozaraq Azərbaycan ərazisindəki faydalı qazıntıların, o cümlədən, Zəngilan rayonundakı Vejnəli, Kəlbəcər rayonundakı Söyüdlü (Zod) qızıl yataqlarının qanunsuz mənimsənilməsini həyata keçirərək külli miqdarda valyuta əldə edib. Düşmən ölkənin cəmi ixracının dəyəri 2019-cu ildə 2,6 milyard ABŞ dolları olub, bunun 16 faizini və yaxud 415 milyon dollarını qızıl və qiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatların ixracı təşkil edib. Təcavüzkar ölkənin ixracında xüsusilə qızıl strateji məhsullardan biri kimi daim ön sırada yer alıb.

Ermənistan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının münbit ərazilərimizdən taxılçılıq məqsədilə qeyri-qanuni yararlanaraq, buğda və arpa məhsullarına olan ehtiyacının 25 faizə qədərini təmin edib, il ərzində torpaqlarımızdan, təxminən, 190 min tonadək taxıl yığıb.




Vətən müharibəsi nəticəsində ordusu demək olar ki, məhv edilən Ermənistan həm də 1 milyard dollardan çox maliyyə itkisinə məruz qalıb, gündəlik müharibə xərcləri, təxminən, 30-35 milyon ABŞ dolları təşkil edib.

Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yürütməsəydi, şübhəsiz ki, indiki ağır böhranla üzləşməyəcəkdi. Belə ki, mənfur düşmən son 25 ildə Azərbaycanın liderliyi ilə regionda həyata keçirilən bütün strateji əhəmiyyətli neft-qaz, nəqliyyat-kommunikasiya, logistika layihələrindən məhrum olmaqla özünütəcrid vəziyyətinə düşüb. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TAP, TANAP və s. kimi layihələrin Ermənistan ərazisindən keçməməsi bu ölkənin hər il yüz milyonlarla ölçülən gəlirdən məhrum olması deməkdir. Prezident İlham Əliyev bununla bağlı haqlı olaraq deyib: "Ermənistan, haradasan? Bakı–Tbilisi–Ceyhan yan keçdi. Bakı–Tbilisi–Ərzurum da həmçinin. TANAP da həmçinin. İndi biz qazımızı Avropaya çatdırırıq. Sən, Ermənistan, pul qazana bilərdin. Kəmərin bir hissəsi sənin əlində ola bilərdi. Sən tranzit haqqı alacaqdın. Sən özünü nədən məhrum etdin?! Dəyərdimi buna? Bu işğalçılıq, bu düşmənçilik, qonşuya qarşı bu nifrət hissləri, onları, bax, bu günə saldı".

Bu gün faktiki olaraq Ermənistan regionda müstəqilliyini tamamilə itirib, müstəmləkə altında olan dövlətə çevrilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu".

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında deyib: "İndi biz yeni dövrə qədəm qoyuruq. Bu dövrlə bağlı mən bundan sonra da öz fikirlərimi bildirəcəyəm. Çünki konseptual nöqteyi-nəzərdən bütün baxışlar yerindədir. Hər şeyi açıq-aydın görürük. Amma, əlbəttə ki, həyat və xüsusilə Qarabağın bərpası ilə bağlı məsələlər bizim planlarımıza müxtəlif korrektələr edəcək. Bu da təbiidir. Ancaq konseptual nöqteyi-nəzərdən gələcəklə bağlı bəzi fikirlərimi bölüşmək istərdim".

Ölkə rəhbərinin işğaldan azad edilmiş rayonlara artıq ənənə halını alan səfərləri həm də erməni vandalizmi nəticəsində tamamilə dağıdılmış, yerləyeksan edilmiş şəhər, rayon və kəndlərin bərpası və yenidən qurulması layihələri ilə yerində qərar qəbul etmək məqsədi daşıyır.

Dövlət başçısının tapşırığı əsasında hazırlanan baş planlar işğaldan azad edilmiş yaşayış məskənlərinin – şəhər və rayonların, qəsəbələrin müasirliklə tarixiliyin sintezinə əsaslanan şəhərsalma-arxitektura elementləri əsasında bərpasına və yenidən qurulmasına imkan yaradır.

İşğaldan azad edilmiş bəzi ərazilərin qısa müddətdə elektrik enerjisi ilə təchiz edilməsi, eyni zamanda "Azərenerji" və "Azərişıq" ASC-yə bölgənin enerji infrastrukturunun bərpası istiqamətində verilən tapşırıqlar qlobal böhran şəraitində ölkəmizin güclü iqtisadi-maliyyə potensialının göstəricisidir. İşğaldan azad edilmiş ərazilərin bol sulu çayları, eyni zamanda Xudafərin, Sərsəng, Suqovuşan və digər su anbarları təkcə su elektrik stansiyaların yaradılmasına, yeni enerji güclərinin alınmasına deyil, eyni zamanda, suvarma infrastrukturunun bərpasına imkan yaradır.

İşğaldan azad edilmiş ərazilərdə həm respublika, həm də yerli əhəmiyyətli 2700 kilometrədək yolların bərpasının nəzərdə tutulması, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı əsasında uzunluğu 101,5 kilometr təşkil edən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun çəkilişinə başlanılması regionun gələcək iqtisadi inkişafı baxımından vacib əhəmiyyət kəsb edir. Bundan əlavə, bölgənin tamamilə sıradan çıxmış dəmir yolu xətləri şəbəkəsinin bərpa planına əsasən, yaxın perspektivdə uzunluğu 104 kilometrə olan Yevlax–Xankəndi dəmir yolu xəttinin Bərdə–Ağdam hissəsinin, habelə 43 kilometr olan Horadiz–Ordubad, 51 kilometr olan Yevlax–Xankəndi, 39,1 kilometr olan Mincivan–Qafan dəmir yolu xətlərinin bərpasının nəzərdə tutulması təkcə iqtisadi deyil, siyasi baxımdan da mühüm önəm daşıyır.

Ermənistan ərazisindən keçərək, Azərbaycanla Naxçıvanı birləşdirəcək yeni avtomobil və dəmir yollarının çəkilişi daha sərfəli, alternativ nəqliyyat-kommunikasiya marşrutu yaratmaqla, təkcə respublikamızın deyil, ümumən region dövlətlərinin (Türkiyə, Rusiya, Ermənistan, habelə Orta Asiya və Şərq ölkələri) geoiqtisadi maraqlarına uyğundur.

Yeni nəqliyyat-kommunikasiya xətləri nəticəsində Azərbaycan Naxçıvan MR-ə və Türkiyənin şərq hissəsinə daha əlverişli çıxış əldə edəcək. Bu yollar, eyni zamanda, Rusiya Federasiyasının Türkiyəyə Gürcüstandan kənar yeni avtomobil və dəmir yolu marşrutu əldə etməsinə imkan yaradacaq.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində reallaşdırılacaq infrastruktur və biznes layihələrində təkcə yerli deyil, xarici şirkətlərin də iştirakının nəzərdə tutulması bölgədə iqtisadi fəallığın artmasına, respublikamızın investisiya cəlbediciliyinin yüksəlməsinə yeni perspektivlər açacaq.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 11 mart.- S.1;2.